**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN 20-30-cu İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-də MİLLİ MÜNASİBƏTLƏR

İxtisas: 5503.02 – Vətən tarixi
Elm sahəsi: Tarix

**İddiaçı: Cəfər Vidadi oğlu Xanəliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Camal Mehdi oğlu Mustafayev**

tarix elmləri doktoru, dosent
**Ədalət Qasım oğlu Qasımov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda Bəhmən qızı Hüseynova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: ______________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: ______________ tarix elmləri doktoru, professor
**Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"30" 10 2024

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Yaxın tarixi keçmişimizə nəzər salınması, obyektiv və tarixi gerçəkliyə uyğun öyrənilməsi müasir dövrümüzün inkişaf problemlərinin və dövlətçiliyimizin yaxın perspektivləri baxımından əhəmiyyətlidir. Belə ki, bu gün cəmiyyətimizdə yaşanan bir sıra problemlərin izləri, ən başlıcası 30 ildən çox davam edən erməni separatizminin ağrıları araşdırmaların aparılacağı dövrdəki sovet-bolşevik siyasi sisteminin apardığı milli siyasətdən başlanmışdır.

1920-1930-cu illər dövrünün hərtərəfli şəkildə tədqiqi və təhlili, dövrlə bağlı ayrı-ayrı mövzuların araşdırılması aktual olmuşdur. Bunların arasında ən çox kütləvi repressiyalar, Azərbaycan rəhbərliyindəki partiyadaxili münaqişələr, inzibati-ərazi bölgüsü, kollektivləşmə və s. kimi məsələlər nisbətən geniş təhlil olunmuş, lakin bəzi mövzular, o cümlədən sovet milli siyasəti, milli münasibətlərin xarakteri kimi vacib mövzuların respublikadakı ictimai-siyasi vəziyyətə təsirinin təhlili tam başa çatdırılmamışdır. Bu baxımdan 1920-1930-cu illərdə Azərbaycan SSR-də milli məsələnin və siyasətin bolşevik siyasi sistemindəki yeri mövzusunun kompleks şəkildə təhlili Vətən tarixşünaslığında mühüm əhəmiyyət kəsb edir.

Təbiidir ki, 70 illik sovet imperiyasında milli siyasət müxtəlif mərhələlərdən keçmiş, bəzən təkmilləşmiş, hətta yenilənmiş təsir bağışlasa da, lakin onun mahiyyəti əsasən dəyişməmişdir. Bu baxımdan Azərbaycanda sovet rejiminin ilk dönəmi, xüsusi ilə də 1920-1930-cu illər digər dövrlərdən çox fərqlidir. Çünki, məhz yeni rejimin mövcudluğunun ilk iki onilliyində baş verənlərin nəticə və fəsadlarını sonrakı dövrlərlə müqayisə etmək, yumşaq desək, düz olmazdı. Sovet milli siyasətinin nəticələri ən müxtəlif sahələri əhatə etmiş və tariximizə ən ağır, faciəli dövr kimi daxil olmuşdur. Ərazi itkiləri, milli ziyalılarımızın, keçmiş dövlət xadimlərinin, tarixi şəxsiyyətlərin fiziki məhvi, tarixi keçmişimizi, milli dövlətçilik ənənələrimizi unutdurmaq, adət-ənənələrimizi məhv etmək, təbii sərvətlərimizi beynəlliləşdirmək, uzun bir müddətdə respublikanın idarəçiliyini qeyri millətlərin təmsilçilərinə həvalə etmək - bu siyahının yalnız bir hissəsidir. Bütün

bunları və digərlərini adicə nəticə adlandırmaq yox, birbaşa tarixi faciəmiz hesab etmək lazımdır.

1991-ci ildə SSRİ-nin dağılması ciddi sosial-siyasi problemlərlə bağlı olaraq qaçılmaz reallıq idisə də, bunu sürətləndirən, ona təkan verən səbəblər sırasında millətlərarası münaqişələr və milli zəmində baş vermiş hərbi toqquşmalar ilk yerdə idi. İmperiyasayağı milli siyasətin nəticəsi olaraq 1980-ci illərin sonlarında, Azərbaycan xalqına zərbə vurmaq üçün törədilən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsi bu cür yanaşmanın fəlakətli nəticələrindən biri idi.

Doğrudur, bu problemin əsası çarizmin köçürmə siyasəti ilə başlamışdısa, lakin sonradan bolşevik rejiminin tam formalaşdığı 1920-1930-cu illərdə apardığı yarıtmaz milli siyasətin gedişində bir qədər də kəskinləşmişdi. Bu səbəbdən də bolşevik partiyasının milli münasibətlər sahəsindəki siyasətinin ardıcıl izlənilməsi, müxtəlif xalqların, etnik qrupların taleyinin həlli üçün əsas sayılan meyarların müəyyənləşdirilməsi yaxın perspektivdə baş verə biləcək, ehtimal olunan problemlərin aradan qaldırılmasında, eyni zamanda gələcəkdə yarana biləcək problemlərin qarşısının alınması üçün mühüm əhəmiyyət kəsb edir.

Nəhayət, tədqiqat mövzumuz bu gün Rusiya Federasiyasındakı bəzi siyasi dairələrdə keçmiş ittifaqın bərpasına çağırışların səslənməsi, 2014-cü ildən başlayaraq hələ də başa çatmamış Rusiyanın Ukrayna Respublikasına hərbi müdaxiləsi baxımından da aktualdır. Hamı bilməlidir ki, Azərbaycan bu gün özü öz taleyinin sahibidir və bunu 44 günlük Zəfər savaşı, ərazi bütövlüyümüzün bərpası bir daha bütün dünyaya sübut etmiş oldu.

Tədqiqat mövzumuzun aktuallığını artıran səbəblər sırasında ilk olaraq bütün sovet rejimi dövründə zaman-zaman ərazilərimizin qonşulara bağışlanması və bunun xalqlar dostluğunun tərənnümü kimi qələmə verilməsi ilə bağlı hadisələrin nəticələrinin acılarını bu gün də yaşamağımız, buna gətirib çıxaran şəraitin təhlilinin tam başa çatmış hesab edilməsinin hələlik tez olduğunun qəbul edilməsi, eyni zamanda bununla bağlı müxtəlif arxivlərdəki elmi dövriyyəyə daxil edilməmiş, hətta bəzən fərqli faktların və məqamların olması da nəzərə alınmalıdır.

Bu sırada daha vacib bir məqam Ulu öndər Heydər Əliyevin formalaşdırdığı və həyata keçirdiyi Azərbaycançılıq ideologiyasının başlıca vəzifə və məqsədlərinin müasir tarixi tədqiqatlarda əsas

götürülməsidir. 1920-1930-cu illərin arxiv istintaq sənədləri, ittifaq və müttəfiq respublikaların rəhbər partiya və sovet işçiləri haqqındakı tədqiqatlar və digər səpkili yazılar Azərbaycan SSR-də Sovet dövlətinin milli siyasətinin mühüm cəhətlərini müəyyən dərəcədə açmağa imkan verir.

Siyasi rejimin əsas təbliğat şüarlarından biri olan sovet milli siyasəti və ya milli bolşevizmin əsas məqsədi kütlə arasında "sovet vətənpərvərliyinin" formalaşdırılmasına xidmətdən başqa bir şey deyildi. Sovet milli siyasəti millilikdən daha çox müttəfiq respublikaların bütün sahələrdə inteqrasiyasına nail olmağa yönəlmişdi. Sovet milli siyasətinin əsas çağırışlarının təntənəsinə nail olmaq üçün istifadə olunan vasitələr arsenalında ən müxtəlif formalar arasında tədqiqatımızda araşdırılmasına xüsusi əhəmiyyət verdiyimiz istiqamətlərdən biri də sovet rejiminin qurulmasında mühüm xidmətləri olmuş, lakin sonradan rejimin millətçi damğası vurduğu şəxslərin faciəsinin köklərinin araşdırılmasıdır.

1997-ci il yanvarın 31-də Ulu öndər Heydər Əliyev AMEA-dakı tarixi çıxışı zamanı XIX-XX əsrlərin tarixinin öyrənilməsinin vacibliyini xüsusi olaraq vurğulamışdır. Sovet dövründə tarix elminin məruz qaldığı təhrifləri xüsusilə qeyd etmiş və bildirmişdi: *"...belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır"* [1]. Bu çağırış hakim rejimin repressiyaları, xalqımızın adət-ənənələrinə, mənəvi dayaqlarına edilən təzyiqlərlə səciyyələnən, tariximizdə son dərəcə mürəkkəb və ziddiyyətli dövr kimi xarakterizə edilən 1920-1930-cu illər dövrünün problemlərinin yenidən işlənilməsinə də aiddir.

Azərbaycan sovet tarixşünaslığında Azərbaycanda sovet hakimiyyətinin qurulması ən populyar mövzularından biri idi. Təkcə onu demək kifayətdir ki, bu problemlə bağlı 1991-ci ilədək nəşr olunmuş ədəbiyyatların sırasına yüzlərlə ədəbiyyat, monoqrafiya, dissertasiya və digər əsərlər daxildir. Onların demək olar ki, hamısı üçün ümumi cəhət sovet rejiminin xalqımızın tarixində müstəsna rol oynamasını təbliğ etmələri, o cümlədən sovet milli siyasətinin cəmiyyətdə mənəvi birlik, əmin-amanlıq yaratdığını qəbul etmələri idi.

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]/ H.Ə.Əliyev: – Bakı: Azərnəşr, – 1997, – I c. – 570 s., – s.336.

Problemin vətən və sovet tarixşünaslığında öyrənilmə səviyyəsi, mərhələləri və istiqamətləri müxtəlif, həm də fərqli olmuşdur. Qeyd etməliyik ki, 1920-1930-cu illərdə tarixçilərin obyektiv elmi tədqiqatları ideoloji səbəblərdən mümkün deyildi. Siyasi sistemin ideoloji silahlarından biri olan tarix elmi bütövlükdə bolşevik partiyasının tapşırıqlarını yerinə yetirdiyindən baş verənlərə obyektiv yanaşa bilməzdi.

Tədqiqat işində 1920-1930-cu illər Azərbaycan SSR siyasi sistemində totalitar rejimin qurulduğu şəraitdə sovet milli siyasətinin mahiyyət və məzmununa aydınlıq gətirilməsi və təhlili məqsədəuyğun sayılır. Milli məsələyə münasibət, milli siyasət rejim üçün iqtisadi, sosial, din və digər vacib məsələlərdən az əhəmiyyət kəsb etmirdi. X.Əhmədov, X.Əliyev, X.Əlimirzəyev, Z.İbrahimov, M.İsgəndərov, S.Qəndilov, Ə.Qurbanov, E.Məmmədov, M.Mirhadıyev, P.Əzizbəyova, C.Quliyev və digər müəlliflərin sovet dövlət quruculuğunun müxtəlif məsələlərindən bəhs edilən tədqiqat işlərində [2] bizim tədqiqat

---

[2] Əhmədov, X. Azərbaycanda sovetlərin yaranması və möhkəmləndirilməsi (1920-1925-ci illər) / X.Əhmədov. – Bakı: Azər.SSR EA nəşr., – 1966. – 186 s.; Əliyev, X. Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən (1930-1934) / X.Əliyev, X.Əlimirzəyev. – Bakı: – 1957. – 273 s.; Əlimirzəyev, X.Ə. Azərbaycan kəndi sovet hakimiyyəti illərində / X.Ə.Əlimirzəyev. – Bakı: Azərnəşr, – 1963. – 208 s.; İbrahimov, Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi / Z.İbrahimov. – Bakı: Azərnəşr, – 1970. – 527 s.; İsgəndərov, M. S.Kirov Azərbaycanda / M.İsgəndərov. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, Bakı: – 1965. – 239 s.; Qəndilov, S. Azərbaycan partiya quruculuğu məsələləri / S.Qəndilov. – Bakı: Azərnəşr, – 1971. – 292 s.; Qurbanov, Ə.Q. Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi dövründə kənddə sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizəsi / Ə.Q.Qurbanov. – Bakı: – 1961; Məmmədov, E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929). – Bakı: Azərb. SSR EA, – 1961. – 156 s.; Mirhadıyev, M. Leninin sosializm qurmaq planının Azərbaycanda qələbəsi / M.Mirhadıyev. – Bakı: Azərnəşr, – 1956. – 135 s.; Азизбекова, П. В.И.Ленин и социалистические преобразования в Азербайджане (1920-1941 гг.). – Москва: Издательство Академии Наук СССР, – 1962. – 366 с.; Гулиев, Дж.Б. Борьба коммунистической партии за осуществления ленинской национальной политики в Азербайджане / Дж.Б.Гулиев. – Баку: Азербайджанское государственное издание, – 1970. – 705 с.; Гулиев, Дж.Б. Под знаменем Ленинской национальной политики / Дж.Б.Гулиев. – Баку: Азербайджанское государственное издательство, – 1972. – 458 с.

mövzumuzun müəyyən cəhətlərindən bəhs edən məqamlarına rast gəlmək olur. Bu müəlliflərin əsərlərində milli məsələlərə münasibətdə hakim ideologiyanın maraqlarına xidmət etmələrinə baxmayaraq, elmi dövriyyəyə daxil etdikləri faktiki materiallar və hadisələrin gedişinə bəzən bir qədər fərqli yanaşmaları sovet milli siyasətinə və onun nəticələrinə obyektiv yanaşmada boşluğu doldura bilməzdi.

S.Qəndilovun sovet tarixşünaslığında o dövrdə partiya quruculuğu və partiyadaxili münasibətlərin təhlilinə həsr edilmiş monoqrafiyası ümumilikdə partiyadaxili ixtilaf və müxalifətin formalaşması, siyasi liderlər arasında yaranmış qeyri-səmimi münasibətlərin şərhinə həsr edilsə də sovet milli siyasətinə obyektiv yanaşmaya rast gəlmirik[3].

Sovet siyasi sisteminin, o cümlədən milli siyasətin bəzi məsələlərinin öyrənilməsinə konseptual yanaşmada atılan ilk addımlardan biri kimi Z.Bünyadovun "Qırmızı terror" əsərini[4] qeyd etmək olar. Əsərdə dövrün dərin və hərtərəfli təhlili verilməsə də, faktiki materiallar əsasında 1920-1930-cu illərdəki milli münasibətlərin bəzi cəhətləri barədə faktlarla rastlaşılır.

Mövzu ilə bağlı müasir Rusiya tarixşünaslığında həmin problemlərə həsr olunmuş silsilə əsərlər[5] yaradılmışdır və onlarda problemin daha obyektiv şəkildə araşdırılması müşahidə edilir.

---

[3] Qəndilov, S. Azərbaycan partiya quruculuğu məsələləri / S.Qəndilov. – Bakı: Azərnəşr, – 1971. – 292 s.

[4] Bünyadov, Z. Qırmızı terror / Z.Bünyadov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1993. – 331 s.

[5] Ашнин, Ф.Д. Дело профессора. Б.В.Чобан-Заде/ Ф.Д.Ашнин, В.М.Алпатов // Восток. – 1998. №5, – с.125-133; Баберовски, Й. Враг есть везде. Сталинизм на Кавказе / Й.Баберовски. – Москва: – 2010, – 854 с.; Квашонкин, А.В. Советизация Закавказья в переписке большевистского руководства, 1920-1922 гг. // Cahiers du Monde Russe Année. – 1997. – 38-1-2, – pp. 163-194; Мартин, Т. Империя «положительной деятельности». Нации и национализм в СССР. 1923-1939 гг. Российская политическая энциклопедия (РОССПЭН) / Т.Мартин. Москва: – 2011. – 644 с.; Сагадеев, А.В. Мирсаит Султан-Галиев и идеология национально-освободительного движения / А.В.Сагадеев. – Москва: ИНИОН РАН, – 1990. – 141 с.; Фицпатрик, Ш. Повседневный сталинизм. Социальная история Советской России в 30-е годы / Ш.Фицпатрик. – Москва: Российская политическая энциклопедия (РОССПЭН). Фонд Б.Н.Ельцина, – 2008. – 336 с.

1920-1930-cu illərdə sovet milli siyasətinin əsl mahiyyəti və milli münasibətlərin məzmunu ilə bağlı obyektiv yanaşma Vətən tarixşünaslığında daha qabarıqdır. Bu dövrdə yazılmış əsərlər içərisində H.Həsənovun [6], F.İbrahimlinin [7], İ.Zeynalovun [8], C.Cəfərovun [9], N.Məmmədovun[10], E.İsmayılovun[11], Ə.Nəzərlinin[12], M.Əmrahovun[13],

---

[6] Həsənov, H. Nəriman Nərimanov - milli təmayüllü kommunist /H.Həsənov. – Bakı: Pedaqogika, – 2004. – 80 s.; yenə onun. Nəriman Nərimanovun tarixi missiyası /H.Həsənov. – Bakı: Pedaqogika, – 2005. – 88 s.; yenə onun. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti / H.Ə.Həsənov. – Bakı: Elm, – 2005. – 248 s.

[7] İbrahimli, F.F. Azərbaycanda 20-ci illərin birinci yarısında kəndə münasibətdə ixtilaflar // – Bakı: Tarix və onun problemləri, – 1997, № 1, – s.77-81; İbişov, F.F. (İbrahimli) Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930) / F.İbişov. – Bakı: Mütərcim, – 1996. – 168 s.

[8] Zeynalov, İ.X. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri - Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.X.Zeynalov. – Bakı: Ləman nəşriyyat poliqrafiya MMC, – 2017, – 720 s.

[9] Cəfərov, C.M. Stalinizm və Azərbaycan kəndi / C.M.Cəfərov. – Bakı: Elm, – 2012. – 144 s.; yenə onun. Azərbaycan kəndi kollektivləşmə illərində/ C.Cəfərov. – Bakı: Elm: – 2008. – 299 s.

[10] Məmmədov, N. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin yaradılması və fəaliyyəti 1921-1938-ci illər / tarix üzrə e. d.-ru e. dər. al. üçün təq. ol. dis.:/ – Bakı: AMEA. – 2015. – 322 s.; yenə onun. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan-Ermənistan ərazi məsələləri // – Bakı: Tarix və onun problemləri. №1-2. – 2009. – s.132-141; yenə onun. Hakimiyyət orqanlarının qolçomaqlara qarşı "düşmən" siyasəti (XX əsrin 20-30-cu illəri) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2010, №3. – s.107-113; yenə onun. Azərbaycanın dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər) / – Bakı: BDU-nun nəşriyyatı. – 2012. – 508 s.

[11] Исмаилов, Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. / Э.Р.Исмаилов. – Баку: Адилоглу, – 2003. – 344 с.; yenə onun. История «большого террора» в Азербайджане / Э.Р.Исмаилов. – Москва: РОССПЭН, – 2015. – 239 с.; yenə onun. Очерки по истории Азербайджана / Э.Р.Исмаилов. – Москва: Флинта, – 2010. – 424 с.; yenə onun. История «большого террора» в Азербайджане / Э.Р.Исмаилов. – Москва: Политическая энциклопедия, – 2015. – 239 с.

[12] Назарли, А.Э. XI Красная Армия в Северном Азербайджане: оккупация, расправы, бесчинства / А.Э.Назарли. – Баку: Элм вя тахсил, – 2014. – 392 с.

[13] Əmrahov, M. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı / M.Əmrahov. – Bakı: ADPU-nun nəşriyyatı, – 2018. – 371 s.; yenə onun. Aprel İşğalından Sonra Sovet Bolşevik Rejiminin Azərbaycan Xalqının Milli-Mənəvi Dəyərlərinə Qarşı Soyqırımı Siyasəti // Akademik Tarih ve Düşünce Dergisi. Eylül 2022. Cilt: 9 / Sayı: 3. – s.748-776.

A.Muradovanın [14], İ.Niftəliyevin [15], Ş.Rəhman-zadənin [16], Ş.Məmmədovanın[17], S.Əliyevanın[18], T.Aslanovanın[19], T.Əhmədovun[20], R.Bayramovanın[21] və b. müəlliflərin tədqiqatlarında ya tədqiqat dövrü, ya da bütövlükdə sovet rejimi illərində Azərbaycan cəmiyyətində yaşanan müxtəlif problemlər konkret tədqiq edilmiş, yeri gəldikcə sovet milli siyasətindəki əyintilərin bəzi nəticələri də öz əksini tapmışdır.

H.Həsənovun tədqiqatlarında [22] Azərbaycanda sovet milli siyasətində yol verilmiş əyintilərdən və bunun fəsadlarından biri kimi

---

[14] Мурадова, А.Дж. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX века) / А.Дж.Мурадова, – Баку: Нурлан, – 2007. – 176 с.

[15] Нифталиев, И.В. Кадровая политика в Азербайджанской ССР в 20 - 30-х гг. XX в. (правовой аспект) // Северо-Кавказский Юридический Вестник, – 2016. № 1, – с.114-126.

[16] Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri) /Ş.Rəhmanzadə. – Bakı: Aspoliqraf, – 2008. – 376 s.

[17] Мамедова, Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане 1920-1930 гг. / Ш.Р. Мамедова. – Баку: Адилоглу, – 2004. – 320 с.

[18] Алиева, С.И. Из истории сталинских репрессий на Кавказе // Современная научная мысль. Научный журнал Истории, экономики и Права. – Москва: НИИ ИЭП, – 2013. – № 4. – с.138-157; yenə onun. Сталинские репрессии Азербайджанской ССР // AMEA Tarix İnstitutunun Elmi Əsərləri. – 2017. – № 64, 65, 66. – s.95-107.

[19] Aslanova, T.A. Azərbaycan rəhbərliyində siyasi qruplaşmalar və onun respublikanın ictimai-siyasi həyatına təsiri (XX əsrin 20-ci illərinin ikinci yarısı-30-cu illər): / tarix elmləri üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı/ – Bakı, 2012. – 28 s.; yenə onun. Azərbaycandakı milli siyasətin digər Cənubi Qafqaz respublikaları ilə müqayisəli təhlili (XX əsrin 20-30-cu illəri) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmləri seriyası. – 2015. №2, – s.123-129.

[20] Əhmədov, T.Ə. Nəriman Nərimanov (albom-kitab) / T.Ə.Əhmədov. – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2018. – 448 s.; yenə onun. Nəriman Nərimanovun "Müstəqil Sovet Azərbaycanı quruculuğu" (1920-1921-ci illər) // – Respublika. – 2019, 27 oktyabr. – s.7.

[21] Bayramova, R.M. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər) / R.M.Bayramova. – Bakı: Elm, – 2007. – 196 s.

[22] Həsənov, H.Ə. Nəriman Nərimanov - milli təmayüllü kommunist / – Bakı, Pedaqogika, – 2004. – 80 s.; yenə onun. Nəriman Nərimanovun tarixi missiyası / – Bakı: Pedaqogika, – 2005. – 88 s.; yenə onun. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti //– Bakı: Elm, – 2005. – 248 s.

N.Nərimanov və onun tərəfdarlarına millətçi damğası vurulmasından bəhs edilməsi mövzuya obyektiv yanaşmadan xəbər verir. Eyni fikirləri F.Əhmədovanın əsərlərinə [23] də aid etmək olar. F.İbrahimlinin, İ.Zeynalovun, C.Cəfərovun və N.Məmmədovun tədqiqatlarında tədqiqat dövrümüzdə Azərbaycan kəndində cərəyan edən əsas sosial-iqtisadi və siyasi proseslərin obyektiv təhlili gedişində sovet milli siyasətində yol verilmiş əyintilərin konkret nəticələrinə də toxunulmuşdur. Adı çəkilən müəlliflər arasında bizim tədqiqat mövzumuzla bağlı bir sıra məsələlərin təhlil edildiyi İ.Niftəliyevin tədqiqat əsərini [24] də xüsusi olaraq qeyd etməliyik. Müəllif XX əsrin 20-30-cu illərində sovet milli siyasətində kadr məsələlərindən bəhs etmiş, sovet rejiminin yarıtmaz kadr siyasətinin Azərbaycan cəmiyyətindəki siyasi gərginliyin güclənməsindəki rolundan faktlarla və ətraflı bəhs etmişdir.

Dövlət müstəqilliyinin bərpasından sonra Vətən tarixşünaslığındakı bəzi dissertasiyalarda[25] tədqiqat dövrümüzə aid müəyyən maraqlı məqamların olmasını da qeyd etməliyik. Bunların arasında ən maraqlısı və bəzi müqayisə, dəqiqləşmələr aparmaq baxımından müraciət etdiyimiz Ş.Məmmədovanın tədqiqatıdır.

---

[23] Əhmədova, F. Nəriman Nərimanov - ideal və gerçəklik / F.Əhmədova: – Bakı: Elm və həyat, – 1998. – 170 s.; yenə onun N.Nərimanovun siyasi fəaliyyəti. (1920-1922-ci illər): / tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı / – Bakı, 2000; – 29 s.; yenə onun. Национальный вопрос и конфликты в большевистской элите в первые годы советизации Азербайджана // Советские нации и национальная политика в 1920-1950-е годы: Материалы VI международной научной конференции. – Киев, 10-12 октября 2013 г. – Москва: Политическая энциклопедия; Фонд «Президентский центр Б.Н. Ельцина», – 2014. – с.620-631.

[24] Нифталиев, И.В. Кадровая политика в Азербайджанской ССР в 20 - 30-х гг. XX в. (правовой аспект) // Северо-Кавказский Юридический Вестник, – 2016. № 1, – с.114-126.

[25] Əhmədova, F. N.Nərimanovun siyasi fəaliyyəti. (1920-1922-ci illər): / tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı / – Bakı, 2000, – 29 s.; Məmmədova, Ş.R. Azərbaycan SSR-də inzibati-amirlik sistemi (1920-1930-cu illər) / tarix üzrə e. d-ru e. dər. al. üçün təq. ol. dis. / – Bakı. – 2014. – 372 s.; Məmmədova, Ş.R. Azərbaycan SSR-də inzibati-amirlik sistemi (1920-1930-cu illər): / tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı/ – Bakı: – 2014. – 52 s.

Tədqiqatın əsas nəticələri C.V.Xanəliyevin əsərlərində[26] əksini tapmışdır.

Beləliklə, Azərbaycan tarixşünaslığının tədqiq olunan problemə həsr olunmuş nümunələrinin təhlili bir daha söyləməyə imkan verir ki, bu tədqiqat işlərində konkret siyasi, iqtisadi, sosial və psixoloji məsələlər aktuallıq təşkil etmiş, 1920-30-cu illərin bütöv bir siyasi sistem, siyasi rejim kimi təhlili, onu təşkil edən element və strukturların iş mexanizmi, inkişaf qanunauyğunluqları diqqətdən kənarda qalmışdır.

1920-1930-cu illərdə Azərbaycanda sovet milli siyasətinin formalaşması və möhkəmlənməsi prosesinin tədqiqinə həsr olunmuş dissertasiya işi zəngin mənbə bazasına əsaslanmışdır. Tədqiqat işində qarşıya qoyulmuş məqsədlərin spesifikası müxtəlif çeşidli sənədli mənbələrin ciddi təhlilini zəruri etmişdir.

Dissertasiya işinin mənbə bazasına daxildir: mərkəzi və yerli partiya təşkilatlarının qurultay, konfrans, plenum və iclaslarının qərar və protokolları; dövlət idarəçilik orqanlarının material və sənədləri. Bunlar mərkəzi və respublika əhəmiyyətli dövlət orqanlarının (Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi, Azərbaycan SSR Xalq Komissarları Soveti, Azərbaycan SSR Fövqəladə Komissiyası, Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı, Siyasi İdarə və s. orqanların) qərar və sərəncamları, hesabatları, onların müxtəlif orqanlarla aralarında yazışmaları; Qanunvericilik sənədləri; Statistik

---

[26] Xanəliyev, C.V. 1920-ci ilin aprel işğalı və sovet hakimiyyətinin qurulması tarixşünaslıqda // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2015. № 2, – s.343-349; yenə onun. Aprel (1920-ci il) işğalı və Azərbaycanda “yeni” milli münasibətlərin formalaşması (1920-1922-ci illər) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2016. № 2, – s.168-174; yenə onun. Образование ЗСФСР как конец формальной независимости Азербайджанской ССР и «новый этап» в национальных отношениях //Slovak international scientific journal. – Bratislava, Slovakia. – 2023. № 74, – s.7-13; yenə onun. The politics of the nationalist stigma in mass repressions in the Azerbaijan SSR and its consequences // Вчені записки Таврійського Національного Університету імені В.І.Вернадського. Серія: Історичні науки. – Украина, – Киев. – 2023, с. 34 (73) № 3, – s.90-96 və s.

sənədlər; Dövrü mətbuat orqanlarının materialları; 1920-1930-cu illər siyasi məhkəmə proseslərinin stenoqrafik hesabatları, istintaq sənədləri və s. Bu mənbələrin əksəriyyəti Azərbaycan Respublikasının Dövlət Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivinin müvafiq fondlarında saxlanılır. Qanunvericilik sənədləri, sənədli materiallar sırasında ali partiya orqanlarının, digər rəsmi qurumların qərarlarının, sərəncamlarının, direktiv göstərişlərinin əhəmiyyətini ayrıca qeyd etmək istərdik[27].

---

[27] Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 гг. /Документы и материалы. Издательство АН Азербайджанской ССР, – Баку, – 1967. – 569 с.; Декреты Советской власти. Том I. 25 октября 1917 г. – 16 марта 1918 г. – Москва: Политиздат, – 1957. – 640 с.; Декрет Ревкома Азербайджана о земле. 5 мая 1920 г. // – Баку. Коммунист. – 5 мая 1920 г. – с.1.; Из истории Гражданской войны в СССР (1918-1922) / Сб. док. и материалов [в 3 томах]. – Москва: Советская Россия, – 1961. – 720 с.; К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. – Баку: Азернешр, – 1989. – 193 с.; Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 2 частях] / – Москва: Политиздат, – 1953. – Ч..2. – 638 с.; Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 2 частях]. Ч. 2. – Москва: Политиздат, – 1953. – 634 с.; Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 4 томах] / – Баку: Азернешр, – 1986. – т.1, – 673 с.; Национально-государственное строительство в СССР в переходный период от капитализма к социализму (1917-1936 гг.). т.1. – Москва: Мысль, – 1972. – 520 с.; Национальная политика ВКП(б) в цифрах. – Москва: Издательство Коммунистической Академии, – 1930. – 290 с.; Работа комиссии при Аз.ЦИК-е по вопросы культурно-экономического состония работы и правового положения немецкого крестьянства в АССР / ARDA. Fond № 379, siyahı №.7, iş № 98; Садыхлы, М.З. Ответ даст тебе история: Геноцид азербайджанцев в цифрах, фактах, документах 20 в./ М.З.Садыхлы. – Баку: Мутарджим, –1995. – 312 с.; Трагедия советской деревни. Коллективизация и раскулачивание. т.1. (Май 1927 - ноябрь 1929 гг.). – Москва: РОССПЭН. – 1999. – 880 с.; Трагедия советской деревни. Коллективизация и раскулачивание / – Москва: РОССПЭН, – 2000. – т.2. – 923 с.; Трагедия советской деревни. Коллективизация и раскулачивание / – Москва: РОССПЭН. – т.3. – 2001. – 1008 с.; Трагедия советской деревни. Коллективизация и раскулачивание / – Москва: РОССПЭН, – 2002. – т.4. – 1056 с.; ЦК РКП (б) - ВКП (б) и национальный вопрос: [в 2-х книгах]. – Москва: – 2005. – Кн 1. 1918-1933. – 784 с.; ЦК ВКП (б) и национальный вопрос: [в 2-х книгах]. – Москва: РОССПЭН, – 2009. – Кн. 2. 1933-1945. – 1095 с.

Dissertasiya işi XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də milli münasibətlər sahəsində baş vermiş siyasi prosesləri əhatə edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 1920-1930-cu illərdə Azərbaycan SSR-də milli münasibətlərin məzmunu təşkil edir. Tədqiqatın predmeti bəhs edilən illərdə milli münasibətlərin başlıca xüsusiyyətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatın məqsədi 1920-1930-cu illərdə Azərbaycan SSR-də milli siyasətin formalaşması prosesinin gedişini və onun indiyədək tədqiq edilməmiş cəhətlərinin mexanizmlərini müəyyən etmək, milli problemlərin həlli təcrübəsini ümumiləşdirməkdir.

Dissertasiyada aşağıdakı vəzifələrin həllinə çalışılır:

- 1920-1930-cu illərdə Mərkəzin həyata keçirdiyi milli siyasətin özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək;
- ali və yerli dövlət idarəçilik orqanlarında qeyri milli kadrların iştirakı məsələlərini araşdırmaq;
- kolxoz quruculuğu, kütləvi siyasi təqiblər və digər mürəkkəb proseslərin gedişində milli münasibətlərin təsirini müəyyənləşdirmək;
- sovet milli siyasətinin milli kadrların sıxışdırılmasında, simasızlaşdırma prosesində, ərazi itkilərinin baş verməsində istifadəsi hallarının nəticələrini müəyyən etmək;
- bəhs edilən dövrdə milli münasibətlərdə yol verilmiş nöqsanların, faciəli hadisələrinin mənşəyini və səbəblərini açmaq;
- milli siyasətin respublikada yaşayan digər xalqların tarixi taleyinə təsirini izləmək;
- cəmiyyətin birliyi və parçalanması potensialını müəyyən etmək;
- tarixi təcrübəni, milli münasibətlərin gələcək inkişaf tendensiyalarını nəzərə alaraq proqnozlaşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işinə müxtəlif növ yazılı mənbələrin cəlb olunması, sovet dövrü tarixi mənbələrin yaranma xüsusiyyətləri və onlarda verilən məlumatların obyektivlik dərəcəsi dissertasiyanın tədqiqat metodlarını müəyyən etməyə yardımçı olmuşdur. Mənbələrin təhlili gedişində bir çox metodlardan, o cümlədən tarixi-müqayisəli və tarixi-tipoloji metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycan SSR-də 1920-1930-cu illərdə həyata keçirilən sovet milli siyasətinin başlıca cəhətləri və nəticələri;
- milli siyasətin və ərazi itkilərinin baş verməsi arasında əlaqə halları;
- N.Nərimanovun milli siyasət haqqında baxışları ilə "beynəlmiləlçi" respublika rəhbərliyi nümayəndələrinin mövqeləri arasında ziddiyyətin nəticələri;
- milli azlıqların vəziyyəti, sovetlərin xətti ilə onlarla görülmüş işlərin vəziyyəti;
- sovet milli siyasəti adı altında milli adət-ənənələrə və dinə qarşı mübarizənin gedişi və nəticələri;
- elliklə kollektivləşmə prosesində milli münasibətlərin gərginləşməsinə yönəlmiş işlər;
- kütləvi təqiblərin gedişində milli kadrların və ziyalılarımızın məruz qaldığı haqsızlıqların nəticələri.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim edilən dissertasiya işi 1920-1930-cu illərdə cəmiyyətdə hakim olan milli münasibətlər mexanizminin kompleks şəklində tədqiqi ilə yanaşı, Vətən tarixşünaslığında bu problemə, mövcud konseptual məsələlərə yeni münasibətin formalaşdırılmasına təşəbbüs sayıla bilər.

Tədqiqat işi 1920-1930-cu illərin bolşevik siyasi sistemində sovet milli siyasəti və milli münasibətlərin kompleks şəkildə təhlilinə edilən ilk cəhdlərdən biridir. İlk dəfə olaraq, totalitar xarakterli rejimlərin əsas əlamət və xüsusiyyətləri fonunda tədqiqat illərində Azərbaycan SSR-də siyasi sistemin formalaşması və inkişafı gedişində milli münasibətlərin məzmunu və nəticələri kompleks şəkildə araşdırılmışdır.

Tədqiqat zamanı sovet rejimi şəraitində milli münasibətlərin həlli sahəsində həyata keçirilən bolşevik tədbirləri təhlil edilmiş, iş metodları, sovet partiya və dövlət bürokratiyasının sovet milli münasibətlərinin formalaşması və möhkəmləndirilməsi işində atdığı addımları araşdırılmışdır. Dissertasiya işində eyni zamanda sovet hökumətinin milli sahədəki siyasətinin mahiyyətinin araşdırılması, beynəlmiləlçilik ideyalarının tədricən "velikorus" şovinizmi ilə əvəz olunması prosesinin öyrənilməsinə cəhd edilmişdir.

1930-cu illərdə milli münasibətlərin məzmunundan yan keçməyən kütləvi repressiyaların güclənməsinə təkan verən səbəblər, onun icra mexanizmi və metodları ilə bağlı yeni faktların araşdırılması tədqiqatımızın yeniliklərindən biridir. Bütövlükdə dissertasiyada əvvəllər "tam məxfi" qrifi ilə saxlanılan bir sıra tarixi mənbələr, sovet dövründə qadağan olunmuş elmi ədəbiyyat nümunələri, elmi dövriyyəyə daxil edilmişdir.

1920-1930-cu illərdə Azərbaycan SSR ərazisində baş vermiş siyasi repressiyaların cəmiyyət daxilində sinfi qarşıdurmanı gücləndirməsinin nəticələri təhlil edilir. Tədqiqat illərində kütləvi repressiyaları dövründə milli münasibətlərin təkamülü, milli adət və ənənələrin zorla ləğvinə çalışılması, bunları şərtləndirən amillər və həyata keçirilmə mexanizmləri araşdırılır.

Azərbaycanın siyasi rəhbərliyi və xalq kütlələri arasında Sovet milli siyasətinin həyata keçirilməsi gedişində bolşevik hakimiyyətinə və sosializm ideallarına real münasibətin bir sıra təfərrüatlarının müəyyən edilməsi hazırkı tədqiqatın aktuallağının mühüm cəhətlərindən biri kimi çıxış edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində müasir vətən tarixşünaslığında milli münasibətlər sahəsində mövcud olan bir sıra konsepsiyalara yeni baxış keçirilmiş, bir sıra mübahisəli məsələlər üzrə obyektiv elmi nəticələr əldə olunmuşdur. Bu məsələlər özlüyündə Azərbaycanda milli münasibətlərin məzmunu, təkamül prinsipləri, bolşeviklərin milli və dini siyasəti, xalq kütlələrinin siyasiləşməsi və s. amillərlə sıx bağlıdır.

Dissertasiyanın elmi nəticələri və tədqiqat zamanı istifadə olunmuş mənbə bazası, toplanılan zəngin materiallar, aparılmış ümumiləşmələr, əldə edilmiş qənaətlər, verilmiş tövsiyələr XX əsrin siyasi tarixi üzrə tərtib ediləcək dərs vəsaitləri, metodik və tədris vəsaitlərində istifadə oluna bilər.

Dissertasiyanın praktik əhəmiyyəti əldə edilən elmi nəticələrlə də müəyyən olunur. Dissertasiyada əldə edilmiş elmi, nəzəri nəticələr müasir dünyamızda baş verən mürəkkəb proseslərin müqayisəli, analitik təhlilinə də kömək edə bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları müəllifin respublikadakı və xarici ölkələrdəki nüfuzlu

elmi jurnallarda çap olunmuş 7 elmi məqalədə və bir sıra beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasında müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür.

**Dissertasiyanın quruluşu və ümumi həcmi.** Dissertasiya Giriş, 3 Fəsil, 8 paraqraf, Nəticə, İstifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Ümumi həcm biblioqrafiya və əlavələr istisna olmaqla - 282385 simvoldur. Bunlardan Giriş - 23857, I Fəsil - 86470, II Fəsil - 82240, III Fəsil - 73347, Nəticə - 16471 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, istifadə edilmiş mənbə və ədəbiyyatlar geniş təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar göstərilmişdir.

Dissertasiyanın **"Aprel (1920-ci il) işğalı və yeni hakimiyyətin milli siyasəti"** adlanan birinci fəsli üç paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı "**Bolşeviklərin Azərbaycanı "simasızlaşdırmaq" xətti və kadr siyasəti"** adlanır. Araşdırma zamanı məlum olur ki, XIX əsrin sonlarına qədər millət anlayışı və milli münasibətlər ifadəsi işlənməsə də, sovet hökumətinin siyasətində milli məsələ, münaqişə və qarşıdurma halları, onları yaratmaq, onlardan istifadə etmək sahəsində çarizmin istifadə etdiyi təcrübə tarixə çevrilsə də, bəzi cəhətləri başqa formalarda davam etməkdə idi.

1920-ci illərin əvvəllərində Azərbaycanın sovetləşməsi prosesində vətəndaşlarımızın "parlaq və işıqlı sosializm cəmiyyəti" ideyaları ilə sehrləndiyi bir vaxtda özlərini yerli kommunistlər hesab edənlərin çoxlarının ağlına belə gəlmirdi ki, bolşeviklərin, Moskvanın vəd etdikləri xoşbəxt və firavan cəmiyyət, müstəqil dövlət əslində təbliğatdan başqa bir şey deyildir.

Azərbaycanda sovet rejimi qurulana qədər Rusiya imperiyasının digər milli rayonları ilə müqayisədə ölkəmizdəki milli münasibətlərin

durumuna nəzər saldıqda xüsusi olaraq qeyd etməliyik ki, tarixən imperiya siyasətində həmişə itaətkar alət rolu oynamış ermənilərlə münasibətlər istisna olmaqla, Azərbaycan şəhərlərində, qəza mərkəzlərində etnik və milli zəmində toqquşmalar baş verməmişdir. Milli bolşevik və ya kommunistlərin öz etirazlarını bildirdikləri daha bir məsələ - Azərbaycanda sosialist dəyişikliklərinin, yeni dövlət quruculuğunun Mərkəzdə olduğu kimi təkrarlanmasına fərqli münasibət bildirmələri idi. Bu məsələ ətrafında baş verənlər respublika rəhbərliyindəki ziddiyyətləri nəinki aradan qaldırmırdı, əksinə bunu bir qədər də dərinləşdirirdi. Mərkəzin birbaşa "xeyir-duası" ilə, əslində isə onun rəhbərliyi ilə Azərbaycan SSR-də həyata keçirilən sosialist dəyişikliklərdə, yeni cəmiyyət quruculuğu tədbirlərində mühüm sahə olan kadr siyasəti gözləntilərdən uzaq olaraq, bir növ mövcud vəziyyətə, keçmiş milli dövlət quruculuğu ənənələrinə, milli dəyərlərə uyğunlaşdırılmır, əksinə, əksər hallarda onu inkar edirdi.

Azərbaycan K(b)P-nin ali orqanlarında daha çox rus və digər qeyri millətlərin nümayəndələrinin aparıcı mövqe tutmasını istəyən, bütün hallarda buna nail olan Mərkəz öz hərəkətləri ilə əslində Respublika rəhbərliyində get-gedə dərinləşən ziddiyyətləri və qarşıdurmanı aradan qaldırmaq əvəzinə, onu daha da gücləndirmək siyasəti yeridirdi. Azərbaycan partiya rəhbərliyində və dövlət strukturlarında özləri üçün daha itaətkar saydıqları zahirən bolşevik, həqiqətdə isə daşnaq olan ermənilərin üstünlüyü, söz və nüfuz sahibi olmaları da Mərkəzin üzdəniraq kadr siyasətinin acı nəticələrindən biri idi. Bu cür düşünülmüş, daha çox siyasi mülahizə və məqsədlərdən irəli gələn kadr siyasəti, sözün əsl mənasında, Azərbaycanı simasızlaşdırmaqla və başsız qoymaqla bərabər, respublikada siyasi gərginliyin daha da artmasına xidmət edirdi.

Birinci fəslin ikinci paraqrafı **"Respublikada siyasi gərginliyin artması, milli təmayülçülük və milli müqavimət"** adlanır. Bildiyimiz kimi, Sovet hakimiyyətinin ilk illərindən başlayaraq, Mərkəzin bolşevik-beynəlmiləlçi, lakin əsl mahiyyətdə qərəzli kadr siyasəti və onun törətdiyi ağır nəticələr Respublikada siyasi gərginliyi daha da artırırdı. Siyasi gərginliyin artması və ilbəil genişlənməsi 1920-ci illərin ilk yarısında az qala adi, adət olunan vəziyyətə

çevrilməkdə idi. Siyasi gərginlik real hakimiyyət orqanı olan bolşevik partiyası sıralarında, istisnasız olaraq bütün idarəçilik strukturlarında, bir sözlə bütün cəmiyyətdə artırdı, bu da bir tərəfdən sosializm quruculuğu prosesinin və inqilabi dəyişikliklərin yerli şəraitin, milli-tarixi ənənələrin nəzərə alınması şərti ilə aparılmasını tələb edən milli kommunistlərin öz mövqeyini get-gedə daha çox müdafiə etmələrinə, onların "beynəlmiləlçi" respublika rəhbərliyi tərəfindən "solçu kommunistlər", "millətçilər", "milli təmayülçülər" adlanmasına, digər tərəfdən isə Azərbaycanda sovet rejiminə qarşı milli müqavimət hərəkatının yeni dalğasının başlanmasına təkan verirdi.

Milli təmayülçülük, yaxud türk-müsəlman xalqları yaşayan ərazilərdə sosialist inqilabının perspektivlərinə fərqli yanaşma mövqeyi N.Nərimanovun və onun tərəfdarlarının çıxışlarında bir-birindən fərqli şəkildə formalaşdığını düşünmək yanlış olardı.

Sovet hakimiyyətinə hər bir halda müəyyən ümidlərlə baxan adi insanların loyal mövqeyi də sovet hakimiyyət orqanlarının yerlərdə - qəzalarda vəziyyətə nəzarətini təmin etməkdə az rol oynamadı. Lakin, 1920-ci ilin may ayının ortalarından başlayaraq yerlərdən ilk həyəcan siqnalları gəlməyə başladı[28]. Milli müqavimət hərəkatının başlama səbəbləri ilk vaxtlar yenicə həyata keçirilən ilk sosialist dəyişikliklərindən narazılıqdan daha çox, sovet hökumətinin yaratdığı müxtəlif cəza orqanlarının yerlərdə get-gedə daha da artan özbaşınalıqları idi.

Azərbaycanda sovet işğalının əsas aparıcı qüvvəsi olan XI Qırmızı ordunun tabeçiliyində olan xüsusi cəza orqanlarının əsas hədəfi, təbii olaraq ilk növbədə hakimiyyətdən salınmış AXC hökuməti və Müsavat partiyasının bütün üzvləri idi. İlk növbədə bu səbəbdən yerlərdə kor-koranə başlayan narazılıq çıxışları dalğasının təşkilatçılarının guya müsavatçıların və digər milli qüvvələrin olduğu bəhanə edilərək AXC dövründə fəaliyyətindən xəbər tutulan bütün milli partiya və siyasi təşkilatlara qarşı terror aktları və cəza tədbirləri kampaniyası həyata keçirilirdi. "Əhrar", "İttihad" , "İslam firqəsi" və

---

[28] Назарли, А.Э. XI Красная Армия в Северном Азербайджане: оккупация, расправы, бесчинства / А.Э.Назарли. – Баку: Элм вя тахсил. – 2014. – 392 с., – s.45.

digər milli partiya və təşkilatlara qarşı həyata keçirilmiş cəza tədbirlərinin gedişində onların fəaliyyəti, bütövlükdə milli müqavimət hərəkatı, demək olar ki, iflic vəziyyətinə düşmüşdü[29].

Milli müqavimət hərəkatının digər forması açıq siyasi mübarizənin daha fəal və ciddi formada davamı olan silahlı müqavimət çıxışları idi. 1920-ci ildə mayın son ongünlüyündən başlayaraq iyun ayının sonunadək davam edən müddət bu çıxışların daha intensiv dövrü kimi qiymətləndirilə bilər. Bu müddətdə Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada əsasən qanundan kənar elan edilmiş AXC Milli ordusu birləşmələrinin, Zaqatalada isə sırf mülki əhalinin iştirakı ilə antisovet üsyanlarının güclü dalğası Azərbaycan SSR rəhbərliyini çox ciddi narahat etmişdi[30].

Beləliklə, milli müqavimət hərəkatının bu mərhələsində arzuolunan nəticələrə nail olunmasa da, hərəkat iştirakçılarına kütləvi divan tutulsa da, ancaq bu, bir tərəfdən xalqın öz mübarizəsində nə qədər qətiyyətli olduğunu, əzmkarlığını nümayiş etdirdi, digər tərəfdən isə bolşevik hökuməti hər bir halda öz fəaliyyətində ən azı müəyyən dəyişikliklər etməyə məcbur oldu.

Birinci fəslin üçüncü paraqrafı **“Respublikanın formal müstəqilliyinə son qoyulması, ərazi bütövlüyünə qəsd və milli münasibətlərdə “yeni mərhələ”** adlanır. Azərbaycanda sovet milli siyasətinin ən ağır nəticəsi bolşevik hakimiyyətinin elə ilk günlərindən birmənalı şəkildə qəbul olunan “müstəqillik oyunu” ilə başlamış sosialist dəyişikliklərinin həyata keçirilməsi şəraitində hər cür milli müstəqillik təzahürlərinə son qoyulmasını və sonda milli sosialist respublikalarının Sovet Rusiyanın tərkibinə qatılmasını nəzərdə tutan sovet imperiyasının yaranması ilə milli müstəqillikdən tam məhrum edilməsi idi.

Sovet milli siyasətinin həyata keçirilməsi gedişində xalqımızın başına gətirilən daha bir faciə, tarixi bəla proletar həmrəyliyi və beynəlmiləlçiliyi adı ilə əzəli və tarixi Azərbaycan torpaqlarının Ermənistan və Gürcüstan sovet sosialist respublikalarına

---

[29] Yenə orada, s.92.

[30] Yenə orada, s.49.

“bağışlanması” idi [31]. Azərbaycan və Ermənistan respublikaları arasında sərhəd və ərazi iddialarının “həll edilməsinin” başa çatması elan ediləndən sonra belə, sərhədboyu ərazilərdən azərbaycanlı əhalinin dəfələrlə qaçqın düşməsi, Ermənistan tərkibində saxlanılan azərbaycanlılardan ibarət yaşayış məntəqələrində sosial-iqtisadi problemlərin get-gedə ciddiləşməsi və yerli hökumətin bu vəziyyətə tam laqeyd münasibəti, sərhədboyu Azərbaycan ərazisində əsasən ermənilərin yaşadığı yaşayış məntəqələrinin dəfələrlə Ermənistan SSR-ə birləşdirmək üçün xüsusi təşkil olunmuş seperatçılıq kampaniyaları nəinki o illərdə, həm də sonrakı on illər boyu davam etməkdə idi.

Azərbaycanın tarixi torpaqlarının Ermənistana güzəşt edilməsi praktikası tarixində 1920-ci illər ən kədərli və ağır dövr kimi yadda qalmışdır. Burada İrəvan şəhərinin hələ AXC dövründə Ermənistana güzəşt edilməsini bir daha yada salmaq yerinə düşərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AXC-nin tariximizdə yeri və əhəmiyyətini yüksək qiymətləndirmişdir: *“AXC Milli Şurasının bu qərarı haqqında mən fikirlərimi dəfələrlə bildirmişdim. Bu gün də demək istəyirəm ki, böyük səhv və böyük cinayət idi. Ancaq bu tarixi həqiqətdir”*[32].

Sosialist quruculuğu prosesinin çətinlikləri, mövcud düşmən əhatəsi və digər əsassız mülahizələri əsas götürən Moskvanın diktəsi ilə 1920-ci ilin sonu və 1921-ci ilin ilk yarısında üç Zaqafqaziya respublikasının nəqliyyat, ticarət və digər iqtisadi əlaqələrinin idarə olunmasının mərkəzləşdirilməsi sahəsində bir sıra addımlar atıldı. 1922-ci il martın 12-də üç Zaqafqaziya sosialist respublikası ali qanunverici orqanlarının birgə iştirakı ilə onların ittifaqının yaradılmasını təsdiq edən müqavilə imzalandı. İttifaq müqaviləsinin şərtinə əsasən üç Cənubi Qafqaz sovet sosialist respublikasının vahid federasiyada birləşməsi nəzərdə tutulsa da, “qısamüddətli müstəqillik” dövrünün ardınca, demək olar ki, bütün hüquqlarından məhrum

---

[31] Azərbaycan SSR Ali Soveti (1920-1991-ci illər): [Elektron resurs] / URL: https://www.meclis. gov.az/news-az.php?id=15&lang=az.

[32] Əliyev, İ. İnkişaf məqsədimizdir: [124 cilddə] / Əliyev, İ. – Bakı: Azərnəşr, – c.124 . – 2022. – 372 s., – s.210.

edilmiş Cənubi Qafqaz milli respublikalarının yerində faktik olaraq vahid dövlət olan Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası (ZSFSR) yaradıldı. 1922-ci ilin 10-13 dekabrında keçirilmiş Zaqafqaziya sovetlərinin I qurultayında yeni ittifaqın Konstitusiyası qəbul edildi [33]. Beləliklə, Azərbaycan SSR-in "formal" dövlət müstəqilliyinə son qoyuldu və ya milli dövlətçillik tarixində 70 ilə yaxın davam edən fasilə yarandı.

Dissertasiya işinin ikinci fəsli **"20-ci illərin ikinci yarısında Azərbaycanda milli siyasət"** adlanır. Fəsil 3 paraqrafa bölünmüşdür. Fəslin birinci paraqrafı "**Milli münasibətlər və milli məsələ ətrafında ixtilaflar"** adlanır. Tədqiqat zamanı məlum olur ki, bəhs edilən dövrdə sovet hakimiyyətinin ilk illəri ilə müqayisədə sovetlərin strukturlarında, eləcə də onun idarəçilik fəaliyyətində ciddi dəyişikliklər baş verməmişdir. 1921-ci ilin mayında Azərbaycan sovetlərinin I qurultayında Hərbi İnqilab Komitəsinin ləğv edilməsindən başlayaraq, cəmiyyət həyatında kütlələrin fəal iştirak edəcəyi və rejimin siyasi əsasını təşkil etməli olan sovetlərin fəaliyyətinin "yuxarıdan" direktiv formada müəyyən edilmiş çərçivələr daxilində təşkili bolşeviklərin əvvəllər vəd etdiyi prinsiplərdən uzaq olmuşdur.

Azərbaycan MİK-in milli azlıqlar arasında aparılacaq işlərin sırasında bir neçə məqam üzərində dayanmağı vacib sayaraq, belələrindən biri kimi 16 aprel 1927-ci ildə qəbul edilmiş qərarda Azərbaycan MİK yanında fəaliyyət göstərən Milli azlıqlar üzrə Komissiyanın tərkibinin təsdiqindən bəhs edilir [34]. Burada diqqət çəkən əsas məsələ komissiyanın katibi çıxılmaqla, 11 müxtəlif millətlərin 27 təmsilçilərinin olmasıdır. Komissiyada 5 erməni, 4 alman işçi olduğu halda ləzgilərin, talışların, yəhudilərin hərəsinin cəmi 1 nümayəndə ilə təmsil olunması, respublikada sayca daha çox

---

[33] İsmayılov, X.C. Azərbaycanda sovet hüququnun inkişafı kontekstində konstitusion dəyişikliklər // – Bakı: Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, – 2018. №1, – s.5-23., – s.6.

[34] Выписка из протокола заседания Президиума Аз.ЦИК-а от 16-го апреля 1927 г. О составе Комиссии Нацменьшиств при Аз.ЦИК-е // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 379, siyahı № 7, iş № 16, vərəq – 8.

olan rusların isə təmsil olunmaması ən azı təəccüb doğurur. 1920-ci illərin ikinci yarısında yerli sovetlərə seçkilərin nəticələri yerlərdə seçilənlər sırasında milli azlıqların nümayəndələrinin sayca daha çox olduğunu göstərdi[35].

Yarandığı ilk vaxtlarda 17 komissarlıqdan ibarət olan, sonrakı illərdə sayı və strukturu genişlənən XKS-nin, onun tabeçiliyində olan idarələrin tərkibinin çoxmillətli olması ciddi nəzarətdə saxlanır və onun fəaliyyət norması kimi qəbul olunurdu. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının 107 nəfər işçisindən yarıdan azı azərbaycanlı olduğu halda, onun rəhbərliyində ruslar ermənilər və gürcülər daha çox təmsil olunmuşdular[36]. Komissarlığın qəzalardakı şöbələrindəki vəziyyət də təxminən buna bənzəyirdi.

Sovetlərin tərkibində, xüsusi ilə də mərkəzi idarəçilik orqanlarında azərbaycanlıların azlığı aşkar görünürdü. 1924-1926-cı illərdə Azərbaycanda sovetlərin müxtəlif pillələrində işləməyə göndərilənlərin cəmi 24,6 faizi azərbaycanlı idi [37]. Eyni vəziyyət Azərbaycanın daxil edildiyi ZSFSR tərkibində qaldığı 1923-1936-cı illərdə də özünü büruzə verirdi. Əgər 1926-1930-cu illərdə azərbaycanlıların Zaqafqaziya Federasiyasının aparatında iştirak dərəcəsi sabit idisə, 30-cu illərin ortalarına doğru fərq, azərbaycanlıların sayının azalması prosesi güclənməkdə idi. 30-cu illərin sonuna aid olan məlumatlara görə: *"federasiya rəhbərliyində azərbaycanlılar say etibarı ilə ruslardan, ermənilərdən və gürcülərdən sonra 4-cü yerdə idilər"*[38]. Bu, sadəcə olaraq, sovet hakimiyyətinin bütün varlığı boyu təbliğatında vəd olunan dinindən, millətindən, dünyagörüşündən və digər amillərdən asılı olmayaraq bütün xalqların və millətlərin bərabər hüquqlarla yaşamasına verilən vədlərin, təminatların pozulması demək idi.

---

[35] Резолюция о ходе отчетно-избирательной компании советов // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1, siyahı № 17, iş № 43, vərəq – 143-146.

[36] Məmmədova, Ş.R. Cənubi Qafqaz XX əsrin Azərbaycan məsələləri / Ş.R.Məmmədova: – Bakı: Mütərcim, – 2020. – 377 s., – s.242-243.

[37] ЦК РКП (б) - ВКП (б) и национальный вопрос: [в 2-х книгах] / – Москва: – Кн. 1. – 2005. – 784 с., – s.51.

[38] ЦК ВКП (б) и национальный вопрос: [в 2-х книгах] / – Москва: РОССПЭН, – Кн. 2. – 2009. – 1095 с., – s.681.

İkinci fəslin ikinci paraqrafı **“Milli adət-ənənələrə qarşı mübarizə sovet milli siyasətinin əsas istiqamətlərindən biri kimi”** adlanır. Bu fəsildə milli məsələ ətrafında davam edən siyasi ixtilaflar və başlıca olaraq milli adət-ənənələrə qarşı mübarizə məsələləri araşdırılmışdır. Sovet totalitar rejiminin milli siyasətində bütöv xalqların yeni proletar mədəniyyətinin formalaşdırılması məqsədinin tələbləri çərçivəsinə salınması siyasəti milli-adət ənənələrin, özünəməxsusluğun inkar edilməsi demək idi. Sovet dövlətinin rəsmi ideologiyasında elan edilmiş “vicdan azadlığı” prinsipində dini etiqadların sərbəst buraxılacağının vəd edilməsinə baxmayaraq, əsrlər boyu insanların psixologiyasının, həyat tərzinin ayrılmaz hissəsi olan dinə etiqad etdiyini nəzərə alsaq, rejimin dinə münasibəti insanlarla sovet hakimiyyəti arasında dərin uçurum yaratmağa xidmət edirdi.

Sovet hökumətinin milli siyasətdə tutduğu mövqeyi milli məsələ ətrafında gərginliyin artması, ixtilafların yaranmasında az rol oynamamışdı. Sovet hakimiyyətinin ilk illərində milli mədəniyyətin mövcudluğuna, onun inkişafına qarşı çıxılmadığı halda, 20-ci illərin ortalarına yaxın bu sahədə vəziyyət tam dəyişir. Sovet ideologiyasının proletar beynəlmiləlçiliyi, xalqlar dostluğunun tərənnümü və digər ideoloji təbliğat prinsipləri əsas götürülərək milli mədəniyyətin “sovetləşməsi”, “proletarlaşması”, milli əsaslardan və köklərdən uzaqlaşılması Azərbaycanda da rus dili və mədəniyyətinin təbliğatını, təsirini gücləndirdi.

Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin inkişafında müəyyən irəliləyişlərə nail olunması, onun gələcək perspektivlərinə şərait yaradılması ilə yanaşı, bu sahələrin “sovetləşməsi”, hakim ideologiyanın tələblərinə uyğunlaşdırılması xatirinə milli kökdən, milli dəyərlərdən uzaq salınması sovet milli siyasətinin ciddi məhdudiyyətləri demək idi. 20-ci illərin ikinci yarısında sovet milli siyasətində formal da olsa, milli dəyərlərin, adət-ənənələrin bəzilərinə yol verilməsi, onların yeni sosialist mədəniyyəti prinsipləri ilə uzlaşdırılması üçün bəzi işlər görülürdü. Bunlardan biri də türk dilinin tətbiqi imkanlarının nəzərdən keçirilməsi, ondan mədəni-maarif müəssisələrində, məktəblərdə istifadə edilməsinin genişləndirilməsi imkanlarının elmi təşkilatlarda müzakirəsi edilməsi idi. Belə

müzakirələrin mövzularından biri də ərəb qrafikalı əlifbanın dövlət miqyasında tətbiqi məsələləri idi.

Yeni əlifbaya keçidin ilk addımları 20-ci illərin əvvəllərindən başlasa da, proses 1929-cu ildə əsasən başa çatdırıldı. Yeni əlifbanın tətbiqi, dəqiq desək, məktəblərdə, mətbuatda, dövlət idarələrində istifadəsi dərəcələri eyni deyildi. Dövlət təşkilatlarında bütün yazışmaların rus dilində aparıldığı bir vaxtda türk dilindən digər sahələrdə, o cümlədən məktəblərdə tədris prosesində istifadə edilməsi 1930-cu illərin ortalarına yaxın baş tutdu.

Fəslin üçüncü paraqrafı "**Bolşeviklərin "sinfi mübarizə"ni gücləndirmək xətti və milli gərginlik"** adlanır. 20-ci illərin ikinci yarısında, ondan sonrakı ilk illərdə də respublika rəhbərliyindəki qarşıdurmalar, sosialist dəyişikliklərinin istiqaməti, sürəti məsələlərinə, eləcə də milli münasibətlərə baxışla əlaqədar beynəlmiləlçi kadrların səngiməyən mübahisələri müəyyən məqamlarda vəziyyətin daha da gərginləşəcəyindən ehtiyat edən Mərkəzi də narahat etməyə başlamışdı. 20-ci illərin ortalarından başlayaraq Mərkəzin milli əhval-ruhiyyəli yerli bolşeviklərə qarşı kəskin mövqe tutması, onlara açıq, örtülü formada təzyiqlər göstərməsi respublikada milli kadrların cəbhəsindəki müəyyən canlanma ilə bağlı idi.

20-ci illərin ikinci yarısında milli münasibətlərin məzmunu, sovet milli siyasətinin prinsipləri, həyata keçirilməsi ətrafında mübahisələrdə yaranan gərginlikdən sonra partiyanın kənddəki siyasətinə münasibətlə bağlı mübahisələr bəzən hətta kəskin qarşıdurma səviyyəsinə gəlib çatırdı. Bəhs edilən dövrdə milli adət-ənənələrə qarşı mübarizənin bir sahəsi də savadsızlığın ləğvi və ardınca mədəni inqilabın həyata keçirilməsi gedişindəki digər tədbirlərin icrası idi. Bu illərdə yeni sovet adətlərinin yaradılması, məişət, həyat tərzinin dəyişdirilməsi gedişində yuxarıdan müəyyən edilən daha bir vəzifə qadınların çadraları atmasına, ictimai-siyasi fəaliyyətə cəlb olunmasına diqqətin artırılması idi.

20-ci illərin ikinci yarısı Azərbaycan SSR-də bolşeviklərin daxili siyasi mübarizəsində yeni, daha ixtilaflı kəskin mərhələ başladı. Bunun səbəbləri haqqında bəlkə də çox danışmaq, onları sosializm

quruculuğunun gedişi ilə bağlı sosial-iqtisadi faktorlarla da əlaqələndirmək olar.

Bu illərdə rəhbərliyin "milli təmayülçü" adlandırılan nümayəndələrinin çıxışlarında səsləndirilən fikirlər heç bir halda sovet rejiminin və sosialist dəyişikliklərinin əleyhinə çıxılması demək deyildi. Bu fikirlər arasında sovet hökumətinin hələ varlığının ilk vaxtlarında vəd edilmiş milli sosialist cəmiyyətinin qurulması, milli kadrlardan partiya və dövlət idarəçiliyində geniş istifadə edilməsi, milli dilin statusunun möhkəmləndirilməsi, respublikadakı sənaye müəsissələrinə kənardan işçi qüvvəsinin gətirilməsinin azaldılması, ərzaq məhsullarının respublikadan aparılmasının nizamlanması, milli-adət ənənələrin, mənəvi dəyərlərin qorunması və s. milli siyasətin icraçıları tərəfindən bilərəkdən yanlış qiymətləndirilib əks-təsir yaradırdı. Bu dövrdə Azərbaycan siyasi elitasında gərginliyin qalması, ixtilafların güclənməsi səbəbləri arasında Mərkəzin buradakı milli siyasəti gedişində yol verdiyi nöqsanlar, milli münasibətlər sahəsindəki vəziyyətin bütövlükdə cəmiyyətdə siyasi sabitliyin təmin edilməsində vacib rolunun lazımınca qiymətləndirilməməsindən irəli gələn xoşagəlməz və ya arzuolunmaz mənzərə idi.

Dissertasiya işinin üçüncü fəsli "**Repressiya dövründə milli münasibətlər"** adlanır. "**İnzibati metodlarla kollektivləşdirmə kampaniyası gedişində siyasi və milli qarşıdurmanın güclənməsi"** adlanan birinci paraqrafda Azərbaycan SSR-də milli münasibətlərin hansı dəyişikliklərə və necə məruz qaldığını müəyyən etməyə kömək edən proseslərdən biri olan 1920-ci illərin sonundan həyata keçirilməsinə başlanğıc verilən fərdi kəndli təsərrüfatlarının inzibati metodlarla kollektivləşdirilməsi prosesi araşdırılmışdır.

Kollektivləşmə dövründə kənddə sinfi qarşıdurma yaradan, siyasi vəziyyəti mürəkkəbləşdirən başqa bir cəhət Moskvanın milli adət-ənənələrə, xüsusi ilə dini inanclara münasibətdə şablon və ya direktiv tələblərin dəyişmədən icrasını tələb etməsi idi.

Kolxozlaşma hərəkatının kənddə sinfi qarşıdurma yaradan nəticələrindən biri kənddə kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı olan və çox vaxt "qolçomaq" adlandırılan varlı kəndlilərə qarşı düşünülmüş şəkildə aparılan "ləğvetmə", "qolçomaqlıqdan salınma" siyasəti idi. Yerlərdə qolçomaqlara qarşı mübarizə müxtəlif

cür aparılırdı. Vaxtaşırı müxtəlif təşkilatların qolçomaqlara qarşı bu dərəcədə açıqcasına mübarizəsinin yolverilməzliyi barədə fikirlər bildirilirdi. Qolçomaq zümrəsinin ləğv olunması üçün dairə qərargahları təşkil olunurdu [39]. Kəndlərdə qolçomaq təsərrüfatların ləğv edilməsi vəzifəsi artıq başa çatdıqdan sonra indi də ortababların, bəzi hallarda isə, yoxsul kəndlilərin siyasi düşmən kimi cəzalandırılması, sonradan bəzi partiya - sovet işçilərinin "səhlənkarlığı" və s. kənd əhalisi ilə şəhər arasında ziddiyyətlərin daha da kəskinləşməsinə xidmət edirdi.

Zorakı üsullarla kütləvi kollektivləşmənin başlanması ilə qolçomaqların məhv edilməsi siyasətinə keçid Azərbaycan kəndində mülkədar torpaq sahibliyinin ləğvindən sonrakı qısa fasilənin ardınca kənddə sinfi qarşıdurmanın yeni mərhələsi demək idi. Qeyd etməliyik ki, cəmiyyətdə siyasi vəziyyəti mürəkkəbləşdirən, qarşıdurmanı gücləndirən bu hallar nəticələri baxımından olduqca təhlükəli idi.

Azərbaycanda kollektivləşmə gedişində məhsulların əsas istehsalçıları olan varlı kəndlilərin bu cür çıxılmaz vəziyyətə salınması, ardınca sürgün edilmələri, müxtəlif cəzalar almaları tariximizin ən faciəli səhifələrindən birinə çevrildi. Kollektivləşmənin 30-cu illərin ortalarında başa çatmasının elan edilməsindən sonra belə kənddə "yad", "etibarsız" ünsürlərin tapılıb cəzalandırılması yenə də davam etməkdə idi. Bu prosesin kütləvi siyasi repressiyaların gedişində davam etməsi cəmiyyətdəki qarşıdurmanın "sosializmin tam qələbəsindən" sonra da davam etdiyini göstərirdi.

Üçüncü fəslin **"Kütləvi repressiyalarda "millətçi damğası" siyasəti və respublika üçün onun nəticələri"** adlanan ikinci paraqrafında müəyyən olunur ki, 1930-cu illərdə Azərbaycan SSR-də siyasi vəziyyət xeyli gərginləşmişdi. Bunu təkcə Azərbaycan kəndində kollektivləşdirmə kampaniyasının gedişindəki çətinliklərlə bağlamaq düzgün olmazdı. Siyasi kursun yerinə yetirilməsi gedişində yol verilmiş nöqsanlar, çox qəribə də olsa, respublika rəhbərliyindən, xüsusi ilə də onun qeyri-milli əksəriyyətinin milli maraqlara zidd

[39] Cəfərov, C. Azərbaycan kəndi kollektivləşmə illərində /C.Cəfərov. – Bakı: Elm, – 2008. – 299 s., – s.63.

mövqeləri ilə bərabər, yerlərdəki partiya təsərrüfat orqanlarının səhlənkarlığı, hətta cinayətkar əməlləri ilə də izah edilirdi.

İttifaqda olduğu kimi, Azərbaycanda da repressiv isteriyanın üzə çıxarılmasının təşkilatçısı və ilhamvericisi ali Sovet rəhbərliyi və hər şeydən əvvəl Stalin idi [40]. Siyasi təqiblərin formal səbəbləri, çıxarılan uydurma hökmlərin motivləri çox müxtəlif idi. Sovet sisteminə qarşı düşmən mövqe, sabotajçılıq, anti-sovet ünsürlərlə əlaqələr və daha bir sıra uydurma səbəblər istintaq proseslərində ən çox səslənən ittihamlar idi.

Siyasi təqiblərin iki mərhələsində: 1) 1937-ci ilin əvvəlindən-1938-ci ilin sentyabrına kimi; 2) 1938-ci ilin sentyabrından-dekabrına kimi olan mərhələlərdə zərbənin ən əsas hədəfi ziyalılar idi.

Təqiblər dövründə kütləvi "millətçi" damğası vurulmuş ziyalılarımız şablon etiketlərlə - "pantürkist", "islamçı" və digər saxta bəhanələrlə günahlandırılırdılar. "Millətçilik"də günahlandırı-lıb, xalq düşməni kimi cəzalandırılanların bir qrupunun müxtəlif elmi təşkilatların və institutların kollektivləri içərisində axtarışının ünvanlarından biri də SSRİ EA-nın Azərbaycan filialının əməkdaşları idi. 1937-ci ilin may-iyun aylarında Azərbaycan Sovet Yazıçılar İttifaqı ən yaxın diqqət obyektinə çevrildi. Birliyin 3 iyunda təcili çağırılan iclasında İttifaqın üzvlərinin bir qrupunun ciddi tənqid edilməsinin ardınca böyük Azərbaycan yazıçıları H.Cavid, Ə.Nəzmi, T.Şahbazi, Ə.Razi, S.Hüseyn və b. həbs olundular. Azərbaycan Yazıçılar İttifaqının 27 nəfər üzvü təqsirləndirilərək haqlarında ağır hökmlər çıxarılmış S.Məcid, Ö.Faiq, Məmmədkazım, S.Hüseyn kimi tanınmış və nüfuzlu yazıçı və şairlərimizin həyatdan məhrum edilməsi mədəniyyətimiz, xalqımız üçün ağır faciə demək idi [41].

Sonrakı onillər, bəlkə də tam yarım əsr üçün törətmiş olduğu çox ağır nəticələr - demoqrafik böhran, savadlı insanların, tək ziyalıların deyil, həm də mühəndis-texniki kadrların sayının kəskin azalması, on illərlə, tanınmış alimlərimizə divan tutulması ilə Azərbaycan elminə

---

[40] Исмаилов, Э.Р. История «большого террора» в Азербайджане / Э.Р.Исмаилов, – Москва: РОССПЭН. – 2015. – 239 с., – s.71.

[41] Исмаилов, Э. История «большого террора» в Азербайджане. / Э.Исмаилов, – Москва: Политическая энциклопедия. – 2015. – 239 с., – s.97.

vurulan sarsıdıcı zərbə, şəhərlə kənd arasında, kənd daxilində insanlar arasında sosial ahəngin pozulması, qarşıdurma yaranması və s. kampaniyanın törətdiklərinin görünən tərəfi idi. Təqib olunanların özlərinin, ailə üzvlərinin, yaxınlarının yaşadığı fiziki-psixoloji gərginlik, onlara cəmiyyətin münasibəti və s. amillər də diqqətdən kənarda qalmamalıdır.

Tədqiqatın **Nəticə** hissəsində aparılan təhlillərdən və ümumiləşdirmələrdən sonra dissertasiyanın sonunda bəzi fikir və qənaətlər irəli sürülmüşdür:

- ilk dəfə olaraq, totalitar xarakterli rejimlərin əsas əlamət və xüsusiyyətləri fonunda 1920-1930-cu illərdə Azərbaycan SSR-də siyasi sistemin formalaşması və inkişafı gedişində milli münasibətlərin məzmunu və nəticələri kompleks şəkildə araşdırılmışdır;
- sovet hökumətinin milli sahədəki siyasətinin mahiyyətinin araşdırılması, beynəlmiləlçilik ideyalarının tədricən "velikorus" şovinizmi ilə əvəz olunması prosesinin öyrənilməsinə cəhd edilmişdir;
- 1930-cu illərdə milli münasibətlərin məzmunundan yan keçməyən kütləvi repressiyaların güclənməsinə təkan verən səbəblər, onun icra mexanizmi və metodları ilə bağlı yeni faktların araşdırılması tədqiqatın əsas yeniliklərindən biridir;
- "tam məxfi" qrifi ilə saxlanılan bir sıra tarixi mənbələr, sovet dövründə qadağan olunmuş elmi ədəbiyyat nümunələri, elmi dövriyyəyə daxil edilmişdir;
- sovet milli siyasətinin milli hərəkat və milli təfəkkürün formalaşması və inkişafı prosesinin qarşısının alınması və məhvinə gətirib çıxarması, bununla da, Şimali Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin bərpasını qeyri-mümkün edən şərait və şərtlərin yaranması məsələləri araşdırılır;
- Tədqiqatın əsas yekunlarından biri də 1920-1930-cu illərdə Azərbaycan SSR ərazisində baş vermiş siyasi repressiyaların cəmiyyət daxilində sinfi qarşıdurmanı gücləndirməsinin nəticələridir;
- sovet rejiminə qarşı xüsusilə də kollektivləşdirmə illərində yönəlmiş silahlı çıxışlar, üsyan və qiyamların mənşəyinin, məqsəd və nəticələrinin öyrənilməsi əsasında siyasi tarixlə bağlı bir sıra

müəmmalı məqamlara yeni yanaşma tərzi formalaşdırmağa şərait yaradılır;

- 1920-1930-cu illər kütləvi repressiyalar dövründə milli münasibətlərin təkamülü, milli adət və ənənələrin zorla ləğvinə çalışılması, bunları şərtləndirən amillər və həyata keçirilmə mexanizmləri də araşdırılmışdır.

Dissertasiyanın sonunda yaxın perspektivdə cəmiyyətimizdə müstəqilliyimizin bərpasından sonra bərqərar olmuş milli münasibətlərin normal ahənginin daha da yaxşılaşdırılması istiqamətində bəzi mülahizə və tövsiyələr də irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. 1920-ci ilin aprel işğalı və sovet hakimiyyətinin qurulması tarixşünaslıqda // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2015. № 2, – s.343-349.
2. Aprel (1920-ci il) işğalı və Azərbaycanda “yeni” milli münasibətlərin formalaşması (1920-1922-ci illər) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2016. № 2, – s.168-174.
3. Образование ЗСФСР как конец формальной независимости Азербайджанской ССР и «новый этап» в национальных отношениях //Slovak international scientific journal. – Bratislava, Slovakia. – 2023. № 74, – s.7-13.
4. The politics of the nationalist stigma in mass repressions in the Azerbaijan SSR and its consequences // Вчені записки Таврійського Національного Університету імені В.І.Вернадського. Серія: Історичні науки. Киев (Украина), – 2023, с. 34 (73) № 3, – s.90-96.
5. Bolşevizmin milli münasibətlərdə tutduğu mövqe və Azərbaycan SSR-də milli siyasətdə ilk əyintilər (1920-ci illərin I yarısı) // – Bakı: Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal. – 2023. № 3 (40), – s.42-57.
6. Azərbaycan SSR-də sovet milli siyasəti ətrafında ixtilaflar və milli münasibətlərin kəskinləşməsi (1920-ci illərin ilk yarısı) // – Bakı:

Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2023. № 4, – s.112-118.

7. Kommunist hakimiyyətinin din əleyhinə mübarizəsi şəraitində Azərbaycan SSR-də etnokonfessional proseslər (1920-ci illər) // “Mədəni müxtəliflik: Dünya və Azərbaycan”. Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı. – 29 aprel, – 2016, – s.157-161.

8. Milli münasibətlərdə Bolşevizmin tutduğu mövqeyə qarşı N.Nərimanovun Azərbaycançılıq təşəbbüsü // Ulu öndərin anadan olmasına həsr olunmuş “Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” beynəlxalq elmi konfransın materialları. I hissə. BSU. – Bakı. – 3-5 may, – 2016, – s.402-405.

9. Sovet totalitar rejiminin Azərbaycanın tarixi ərazilərinin ermənilərə bağışlanması hesabına milli münasibətləri “tənzimləmək” siyasəti (1920-ci illər) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş “Milli-mənəvi dəyərlər: ənənə və müasirlik” mövzusunda beynəlxalq elmi konfransın materialları. AzMİU. Azərbaycan, – Bakı, – 2018, – s.214-218.

10. Sovet Rusiyasının işğal rejiminə qarşı Azərbaycanda milli müqavimət hərəkatı: Milli Ordu hissələrinin mübarizəsi və xalq üsyanları (1920-1924-cü illər) // 3. Uluslararası 24 kasım başöğretmen eğitim ve yenilikçi bilimler Sempozyumu. 3. Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar Simpoziumu. –ADPU. – Bakı. – 24-25 may, – 2021. – s.75-93.

11. Azərbaycan SSR-də milli adət-ənənələrə qarşı mübarizə və bolşeviklərin Azərbaycan mədəniyyətinə mənfi münasibətləri (1920-1930-cu illər) // The XXXII International Scientific Symposium “Turk's Victory: from CHANAKKALE to KARABAKH”. – Kars-Eskishehir. – Turkey. The 26th of November. – 2022, KAFKARS EĞİTİM YAYINLARI, – s.225-231.

12. 1920-1930-cu illərdə Azərbaycan SSR-də dinə qarşı mübarizə // 6th International Black Sea Modern Scientific Research Congress. – Trabzon, Türkiye. – August 23-25, 2024, – IKSAD Publications, – s.400-405.

Dissertasiyanın müdafiəsi 4 dekabr 2024-cü il tarixində saat 10 00 Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəhəri, Yasamal r/nu., Zahid Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 4 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.10.2024

Kağızın formatı:A5

Həcm: 40 906 işarə

Tiraj: 100 nüsxə